# Qərb ölkələrində sosial problemlərə kulturoloji yanaşmalar

**Dünyanın sosial-mədəni problemlərinin həlli istiqamətlərini müəyyənləşdirərkən öncə bu fakta toxunmaq lazım gəlir ki, müasir Qərb fəlsəfəsində müxtəlif, bəzən də bir-birinə birbaşa əks cərəyanlar mövcuddur. Müasir Qərb fəlsəfi və kulturoloji fikrindəki bu elmi fikrin müxtəlif qolları, idealizm ilə materializm arasında gedən mübarizədən meydana gəlir. Bu cərəyanlardan "neopozitivizm", "praqmatizm", "ekzistensializm", "personalizm", "neotolizm" və başqaları əsas yer tutur. "Neopozitivizm" cərəyanı ingilisdilli ölkələrdə geniş yayılmışdır. Onun görkəmli nümayəndələri P. Karnap, A. Ayer, B. Rassel, L.Vitgensiteyn və başqaları olmuşdur...**

**Məntiqi pozitivizm özünü materializm ilə idealizm arasında gedən mübarizənin fövqündə durduğunu bəyan edərək fəlsəfənin sinonimi kimi başa düşülür. Məntiqi pozitivizm "hadisələri və faktları", daha doğrusu subyektin şüurundakı "hissi məlumatları" hər cür idrakın ilkin şərti hesab edirdi. Bu cərəyanın xüsusiyyətlərindən biri obyekti onun haqqında fikirlə, nəzəriyyə ilə eyniləşdirməsidir. Bu cərəyanın digər prinsipial xüsusiyyəti "obyektiv fakt" və "elmi fakt" anlayışlarını eyniləşdirməsindədir.**

Neopozitivizmin söz və ifadələrin müxtəlif "dil oyunları" kimi işlədilməsi üsullarının təsvirinə gəlib çıxması idrakın statusuna yenidən baxılması ilə nəticələndi. Neopozitivizmdə fəlsəfi və elmi sistemlər oyun xarakteri daşıyan dil törəmələrindən başqa bir şey deyildir (2, s. 73-79).

Praqmatizmin başlıca nümayəndələri Pirs, U. Cemis, C.Dyuidir. ABŞ-da çox yayılmışdır. O, obyektiv aləmin dəyişkənliyi faktını qeyd edir, lakin onu əsassız olaraq mütləqləşdirir. Dyuiyə görə idrakın funksiyaları gerçək aləmin obyektlərinin surətini çıxartmaq deyil, gələcəkdə bu obyektlərlə daha səmərəli və faydalı münasibətlərin yaradılması yollarını müəyyən etməkdən ibarətdir. İnsanın vəzifəsi dünyada ən yaxşı yola düşməkdən ibarətdir, praqmatizmin vəzifəsi isə ona bu işdə kömək göstərməkdir.

Qərbdə çox dəbdə olan fəlsəfi-kulturoloji cərəyanlarından biri "Ekzistensializm"dir. Onun ən görkəmli nümayəndələri Almaniyada M.Haydeqqer, Fransada Q.Marsel, ABŞ-da Y.Barrerdir. Ekzistensializmə görə fəlsəfənin vəzifəsi elmin problemləri ilə deyil, sırf insan varlığının məsələləri ilə məşğul olmaqdan ibarətdir. İnsan öz iradəsindən asılı olmayaraq bu dünyada, öz taleyinə atılmışdır və o, ona yad olan aləmdə yaşayır, onun varlığı hər tərəfdən sirli işarələrlə, simvollarla əhatə olunmuşdur. Qorxu ekzistensializm fəlsəfəsinin ən mühüm anlayışıdır.

Qərb ölkələrinin fəlsəfəsində dini-idealist cərəyan olan "personalizm" müəyyən nüfuz qazanmışdır ki, əsas nümayəndəsi N. Berdyayevdir. Personalizm şəxsiyyəti ali mənəvi sərvət, bütün dünyanı isə "ali şəxsiyyətin" - Allahın fəallığının təzahürü hesab edir. Personalizm insanın dünyada oriyentasiyası vəzifəsini bütün mövcudatın və insan iradəsinin ali başlanğıcı olan Allah ilə əlaqələndirir. Bir halda ki, şəxsiyyət gerçəkliklə düşmən münasibətdədir, həyat ondan başlanır ki, o, mühit ilə əlaqəni pozur: Şəxsiyyət özünə qapılmalıdır, "fikrini cəmləşdirməlidir" (9).

Müasir dini fəlsəfənin mühüm cərəyanlarından biri, öz adını orta əsr ilahiyyatçısı Foma Akvinskinin adından götürmüş (J.Mariten, E.Jilson) və kapolisizmin hökmran olduğu ölkələrdə geniş yayılmış "neotomizmdir". Bu bir-birinə tamamilə əks olunan inam və zəkanı, dini və elmi bütöv harmonik bir sistemdə birləşdirmək cəhdi ilə səciyyələnən obyektiv - idealist doktrinadır. Onların fikrincə, dünya fövqəltəbii qüvvələrə tabedir. Elm yalnız təbii dünyanı, din isə ali, fövqəltəbii dünyanı dərk edir. Onlar fəlsəfənin bütün tarixini yanılmalar silsiləsi hesab edərək dünyanın bütöv və nikbin konsepsiyasını yaratmaq iddiasındadır.

Ümumiyyətlə, müasir Qərb elmi-nəzəri, fəlsəfi və kulturoloji fikrinin qaynaqlarına diqqət yetirdikdə məlum olur ki, müasir sosial-mədəni problem və cərəyanların həlli istiqamətləri öz əsasını iki-üç əsr bundan əvvəl götürmüşdür. Belə ki, hələ XVII əsrdən başlayaraq fəlsəfənin inkişafında yeni dövr adlandırılan mərhələ başlamışdır. Yeni dövr fəlsəfəsində praktik təbiətşünaslıqdan irəli gələn güclü materialist meyl xarakterik cəhətdir.

Tədqiqatlardan (7; 8) öyrənirik ki, görkəmli fransız təbiətşünası və filosofu R.Dekart burjua fəlsəfəsinin banisi olmuşdur. Dekart köhnə fəlsəfi ənənəni tənqid edərək özü sıfırdan başlamır, o, öz fəlsəfəsinin çıxış prinsipi kimi zəkanı, onun daxili impulsu olan özünü dərketməni əsas götürür.

Digər bir Qərb mütəfəkkiri - Hollandiya filosofu B.Spinoza idrak nəzəriyyəsində, idrakın 3 növünün olmasını qeyd etmişdir. Birinci növ idrak rəy və təsəvvürlərdən, özgə adamlardan əldə edilən fikirlərdən təşkil olunduğundan, onlar həqiqi bilik verə bilmir. İkinci növ idrak, zəkanın bilavasitə fəaliyyətindən ibarətdir. Üçüncü növ idrak intellektual intuisiya ilə şeylərin mahiyyətinin dərk edilməsindən ibarətdir. Bu cür idrak insanın ən yüksək və ali idrak qabiliyyətidir.

Qərb kulturoloji fikrinin qaynaqlarından bəhs edərkən vurğulanmalıdır ki, klassik fəlsəfənin ideal nümunəsi olan alman fəlsəfəsi çox ziddiyyətli, mürəkkəb ictimai-siyasi və nəzəri şəraitdə meydana gəlib formalaşmışdır. Klassik alman fəlsəfəsi başlıca olaraq materializm və idealizmin ziddiyyətli yolları ilə irəliləmiş və fikir tarixinə daxil olmuş İ.Kant, G.Hegel, L.Feyerbax tərəfindən təmsil olunmuşdur. Adları çəkilən filosoflardan hər birisi ideya və konsepsiyalar zənginliyi ilə bir-birindən fərqlənən fəlsəfə sistemi yaratmışlar.

Almaniyada sosial məktəb XIX əsrin sonunda meydana gəlmişdir. Almaniyada, həmçinin ABŞ-da inhisarlar çox sürətlə inkişaf edirdi, Birinci Dünya müharibəsi illərində isə burada dövlət - inhisarçı kapitalizm sistemi yaranmışdı. Cəmiyyətin təsərrüfat inkişafında dəyişikliklər, istehsalın sosialistləşdirilməsinə başlanması, iqtisadi hadisələrin təhlilinə sosial yanaşmanın zəruriliyi, Avstriya məktəbinin individualist göstərişlərinin aşkar köhnəlməsi - bütün bunlar mərkəzi sosial problemlərə meyl olan yeni elmi istiqamətin meydana gəlməsinə kömək etdi.

Qərb ölkələri içərisində sosial məktəblərin inkişafına təkan verən alimlərin içərisində alman sosioloqları xüsusi qeyd edilməlidir ki, bunlar içərisində sosioloq və iqtisadçı R.Ştammlerin (1856-1938-ci illər) və siyasi iqtisad professoru R.Ştolsmanın (1852-1930-cu illər) adı öndə gəlir. R.Ştammlerin əsas əsəri "Təsərrüfat və hüquq"dur (1896-cı il). Müəllif burada sosial məktəbin fəlsəfi və metodoloji prinsiplərini dürüst ifadə etmişdir. Ştolsman "Sosial kateqoriyalar" (1896-cı il), "Xalq təsərrüfatında məqsəd" (1909-cu il), "Xalq təsərrüfatı fəlsəfəsinin əsasları" (1925-ci il) əsərlərində həm də bu təlimin nəzəri-metodoloji əsaslarını inkişaf etdirmişdir.

Sosial məktəbdə A.Ammonun "Siyasi iqtisadın predmeti və əsas anlayışları" (1911-ci il), "Xalqın rifahı haqqında təlimin əsasları" (1926-cı il), F.Oppengeymerin "Xalis və siyasi iqtisadın nəzəriyyəsi" (1902-ci il), "Sosial məsələ" (1912-ci il), "Kapital olan dəyər və mənfəət" (1922-ci il), F.Petrinin "Marksın dəyər nəzəriyyəsinin sosial məzmunu" (1916-cı il), K.Dilin "Nəzəri və siyasi iqtisad" (1916-cı il), "Kapitalizmin hüquqi əsasları" (1929-cu il) əsərləri mühüm yer tutur.

Qərbin "sosial məktəb"i yeni tarix məktəbinin varisi olub, onun nümayəndələrinin arxasınca iqtisadi həyatın müəyyənedici amilləri kimi hüquqi və etik normaları nəzərdən keçirirdi. Lakin yeni tarix məktəbindən fərqli olaraq, sosial məktəbin tərəfdarları göstərirdilər ki, iqtisadi münasibətlər müəyyən sosial məzmuna malikdir ki, bu münasibətlərin arxasında insanlar arasında ictimai münasibətlər durur və əsasını iqtisadi hadisələrin təhlilinə sosial yanaşma təşkil edən iqtisadi nəzəriyyə yaratmağa cəhd edirdilər. Bu məktəbin metodologiyası formanın məzmun üzərində üstünlüyünün qəbul edilməsinə əsaslanırdı.

Bu məktəbin tərəfdarları bazar iqtisadiyyatının iqtisadiyyatın sosial islahatlaşdırılması vasitəsilə yaxşılaşdırılması, işçilərin korporasiyalarının təşkili yolu ilə mümkünlüyü müddəasına əsaslanırdılar. Onlar kapitalizmin sosial-iqtisadi ziddiyyətlərinin aradan qaldırılmasının əsas vasitəsini məhz istehsalın dövlət-hüquqi tənzimlənməsində və bölüşdürülməsində görürdülər. Sosial məktəb sosial antoqonizmlərdən uzaq olan yeni ictimai quruluşun əsasını xüsusi mülkiyyətin gələcək təkamülündə, onun səhmdar mülkiyyətə çevrilməsində, öz fəaliyyətlərini plan üzrə quran inhisarların inkişafında görürdü.

Bəşəriyyətin vahid bir sistem kimi formalaşması daha çox tarixi prosesdir. Ona görə də, sivilizasiyanın tarixi və identifikasiyası bir tərəfdən fərdi mənəvi-intellektual proseslərin təhlilindən keçirsə, digər tərəfdən ictimai-tarixi proseslərin mədəni-mənəvi müstəvidə proyeksiyası ilə müşayiət olunur. Təsadüfi deyildir ki, A.Toynbi sivilizasiya tarixi kontekstində vahid bəşəriyyətin formalaşması, planetin coğrafi-tarixi bütövləşməsi problemini qoyur. Onun fikrinə görə, "1500-ci ildən başlayaraq bəşəriyyət vahid ümumdünya cəmiyyətində birləşir". Əlbəttə, bu, şərti bir rəqəmdir.

Əsas məsələ dövrün mahiyyətini ifadə etməkdir. Dövr isə elə bir dövr idi ki, Şərq Qərbə doğru genişlənərək dayanmışdı. Daha irəliləyə bilmirdi. XVI əsrin əvvəllərində öz kulminasiyasına çatan üç böyük türk imperiyasını birləşdirə bilən böyük ideya, böyük fəlsəfə yox idi. Sultan Səlim, Şah İsmayıl və Babur imperiya daxili inteqrasiya yarada bilsələr də, "qılınc fəlsəfəsi" daha böyük miqyaslı inteqrasiya üçün kifayət etmirdi. Onların üz-üzə gəlməsi tarixi zərurət idi. Birləşdirici İslam ideyası VII əsrdə qalmışdı. Bir tərəfdən mövhumat həqiqi dini ideyanı kölgədə qoymuşdu və digər tərəfdən, təriqətçilik, xüsusən iri miqyaslı sünni-şiə bölgüsü ideoloji vəhdəti mümkünsüz edirdi. 1514-cü il Çaldıran müharibəsi bu ideoloji böhranın hərbi-siyasi təzahürü olmaqla, şərti olaraq Şərqin süqutunun başlanğıcı kimi dəyərləndirilə bilər.

Bu baxımdan, biz A.Toynbinin təxmini göstərdiyi "1500-cü il" tarixini daha da dəqiqləşdirmiş oluruq. Bu elə bir dövr idi ki, yeni ideya artıq Şərqdə yox, Qərbdə yaranırdı və yeni Səlib yürüşünün təməlini qoyurdu. Bu yürüş daha qılıncla yox, elmin ecazkar gücü ilə, iqtisadi yüksəlişlə, elmi-texniki nailiyyətlərin kompleks tətbiqi ilə həyata keçiriləcəkdi.

Məhz Qərb fəlsəfəsi tətbiqi elmin yaranmasını şərtləndirən yeni ideya olmuşdur. Əslində indi Vasko da Qama, Kolumb, Ameriko Vespuçi ancaq zahiri təzahürlər idi. Daxili hərəkətverici qüvvə isə rasionalizm və

emprizmin ittifaqından yaranan Yeni Dövr fəlsəfəsi idi. İmperiyalar öz aralarında ittifaqa gələ bilməsələr də, ideyaların birləşməsi ilə yeni sivilizasiyanın təməli qoyulurdu.

Çağdaş fəlsəfi fikirdə müşahidə olunan əsas tendensiyalar neçə əsr fikirlərə hakim olmuş köhnə ideoloji sistemin böhranından və yeni ideya doğuluşundan xəbər verir. Bu ideya daha nə ayrılıqda Şərqi, nə də ayrılıqda Qərbi ifadə etməyib, onların vəhdətinə əsaslanmaqla ümumbəşəri idealın fəlsəfi-konseptual təməlinin formalaşmasına xidmət edir.

Postmodernizm sadəcə rasionalizmin inkarı deyildir. O, yeni ideya axtarışı meydanını xatırladır. Ekzistensializm də sadəcə pozitivizmə alternativ təlim olmayıb, hiss dünyasının Qərb sivilizasiyası dövründə kifayət qədər dəyərləndirilə bilməyən böyük daxili potensialından istifadə etmək zərurətinin ifadəsidir (6, s. 132).

Rasional düşüncə tərzinin hakim kəsilməsi və insanlarda müqəddəs duyğuların, böyük arzu və ideallanın, nəcib insani keyfiyyətlərin quru məntiqi analizlə əvəz edilməsi - əxlaqi tənəzzül təhlükəsi yaradır. Bu hadisə ən çox gənc nəslin kütləvi mənəvi deqradasiyası kimi təzahür edir. Ali məqsədin, nəcib duyğuların olmaması, primitiv hisslərin, maddi-fizioloji mahiyyətdən doğan arzu və istəklərin gəncliyə hakim kəsilməsi ailə böhranının, parnoqrafçılığın, narkomanizmin, neofaşizmin və s. bu kimi meyllərin geniş yayılmasına gətirib çıxarır. Doğrudur, bu hadisələrin sosial səbəbləri də vardır, lakin burada ilk səbəb kimi məhz rasionalizm mütləqiyyəti və onu neytrallaşdırmaq cəhdləri çıxış edir.

Əsrlər boyu formalaşan və güclü fəlsəfi və ideoloji bazası olan rasionalizmdən fərqli olaraq onun alternativləri: irrasionallığı ön plana çəkən sosial təmayüllərin nəzəri əsasları hələ təzə-təzə yaranır. Bu "nəzəriyyəçilərin" cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarına istinad etmədən, praktikada sınanılmış fəlsəfi nəzəriyyələrə və ideoloji prinsiplərə əsaslanmadan, yalnız ayrı-ayrı konkret mühakimələrə istinad edərək, yalnız müəyyən qrup hadisələr üçün səciyyəvi olan elmi qanunauyğunluqları mütləqləşdirərək "dünyanı dəyişdirmək" xülyasına düşmələri nəticə etibarilə heç bir ictimai bəhrəsi olmayan kortəbii axına çevrilir, dünyanı dəyişmək və öz azadlığını təsdiq etmək həvəsi isə xüsusi bir azad gənclik mühiti yaratmaq, həyat tərzində hansı isə xırda, formal dəyişiklik etmək "təskinliyi" ilə əvəz olunur. Bu proseslər hələ ki, ictimai tərəqqinin aparıcı xəttinə, hərəkətverici qüvvələrinə təsir etmir. Lakin gələcəkdə belə təsirləri istina etmək üçün əsas yoxdur. Cəmiyyət qurucular və istehlakçılar qismində iki yerə bölünürsə, bu proses gec-tez öz sözünü deyə bilər.

Qərbdə yeni ideya cərəyanları və gənclik hərəkatları heç də təkcə rasional düşüncə tərzinin insan mənəviyyatına birtərəfli təsirinin nəticəsi olmayıb, həm də və daha çox dərəcədə həmin rasionalizm atmosferinin (bu atmosfer əslində industrial cəmiyyətin müəyyən spesifik cəhətləri ilə birləşərkən həqiqətən dözülməz olur) doğurduğu sıxıntıya qarşı çıxmaq cəhdinin nəticəsidir. Lakin kor-koranə surətdə, bu sıxıntının, dözülməzliyin əsl səbəblərini aşkar etmədən, onları aradan qaldırmağın elmi yollarını müəyyənləşdirmədən göstərilən cəhdlər müsbət nəticə verə bilməz.

Obyektiv ictimai qanunauyğunluqları dərk etmədən, real ictimai münasibətlərin dəyişilməsinə nail olmadan "ürəyim necə istəyir, elə də yaşamalıyam" prinsipi ilə nümayiş etdirilən azadlıq həqiqi azadlıq deyil. Təəssüf ki, bu gün Qərb dünyasında yetişməkdə olan gənclərin böyük bir qismi azadlığın bu bəsit anlamını rəhbər tutaraq onu həqiqətən məhdudlaşdıran ictimai-iqtisadi problemlərə, cəmiyyətin mənəvi həyatındakı həqiqi çatışmazlıqlara qarşı yox, "köhnə" adət-ənənəyə, valideynlərə, milli köklərə qarşı çıxırlar. Qloballaşma siyasəti yürüdənlər isə bu cür asan əldə oluna bilən azadlığı başqa ölkələrin gəncliyinə "bağışlamağa" hazırdır. Beləliklə, öz ölkələrinə bir cür, başqa ölkələrə başqa cür ideoloji münasibət müasir dövrün ikili standartlar spektrində önəmli problemlərdən birinə çevrilir.

XX əsrin sonu, XXI əsrin əvvəllərində Qərbdə rasionalist düşüncə tərzinə qarşı çıxışlar xeyli çoxalmış, azadlıq və rəngarənglik axtarışları bu sahəyə də müdaxilə etmiş və alternativ düşüncə və həyat tərzləri yaradılmışdır. Bəli, məhz yaradılmışdır. Çünki proseslərin təbii gedişi, sosial-iqtisadi həyatın, ictimai mühitin təsiri, aşağıdan dəyişilmə bir şeydir, fəlsəfənin dəyişilməsi, yeni ideologiyaların yaradılması və bunun kütlələrə yuxarıdan təlqin edilməsi başqa bir şeydir.

Rasionalizmi inkişaf etdirməklə bahəm onun əlavə təsirini klassik bədii düşüncə ilə, ənənəvi gözəllik duyğusu ilə kompensasiya etmək, neytrallaşdırmaq bir şeydir, onu kökündən sarsıtmaq, irrasional düşüncə tərzi aşılamaq, reallığın özünü inkar etmək, bəzən hətta dəyişiklik naminə dəyişiklik etmək başqa bir şeydir. Postmodernizm məhz nəyin bahasına olursa-olsun ənənədən uzaqlaşmaq təşəbbüsləri kimi görünür. Onun "fəlsəfi əsasları" da əslində fəlsəfənin əsaslarını dağıtmaq, metafizik düşüncəni ümumiyyətlə inkar etmək üzərində qurulmuşdur.

İmpressionist, sürrealist, avanqardist baxışlar (öncə sənətdə yayılan) tədricən düşüncə tərzinə sirayət etmiş, postmodernizmin bir çox istiqamətləri bədii yaradıcılıqla yanaşı fəlsəfi fikrə də təsir göstərmiş, ənənədən uzaqlaşmaq bir çox insanlar üçün arzuolunmaz haldan məqsədə çevrilmişdir. Əsrlər boyu ağıldan instinktə, ruhdan nəfsə enməkdən xilas arayan insan indi bunu müasirlik, inkişaf ölçüsü kimi dəyərləndirməyə başlamışdır. Dəyişiklik, yeniləşmə dalğası artıq meyarların özünü də hədələməyə başlamışdır (3; 51).

Ostvald Şpenqlerin "Avropanın süqutu", Patrik Byukenenin "Qərbin ölümü" əsərlərindən sonra indi Qərb fəlsəfi fikrində postmodernizmə bir reaksiya yaranmışdır. Postmodern dövrünün nümayəndəsi olan Cil Lipoveski "Boşluq erası. Müasir individualizm haqqında esse" əsərində rasionalizmə, fikir ənənəçiliyinə reaksiya kimi yaranmış azad hissiyyat, azad düşüncə və azad rəftar hərəkatının acı nəticələrindən söhbət açır. İstehlak cəmiyyətinin gənc nəsil üçün yaratdığı asan yaşayış tərzi, həyatdan ləzzət almaq, instinktiv hisslərə qoyulan ictimai məhdudiyyətləri addayıb keçmək, bütün sosial və əxlaqi baryerləri dağıtmaq, kef və əyləncələrə meydan açmaq - bütün bunlar yeni dövrün səciyyəsi kimi təqdim olunur. C. Lipoveski bu həyat tərzini stimullaşdıran iqtisadi motivləri də müəyyən etməyə çalışır.

Əvvəllər gənclərin kef və əyləncəyə pul sərf etməsi üçün əvvəlcə faydalı əməklə məşğul olması və maaş alması tələb olunurdu. Əmək isə bildiyimiz kimi, mənəvi səbatlılığın formalaşması üçün ən mühüm amillərdən biridir. İndi isə kredit kartlarının peyda olması gənclərə nisyə mal almaq və hələ pul qazanmamış pul xərcləmək imkanı yaradır. C.Lipoveski bu hadisəni protestant etikasının ən güclü dağıdıcı aləti hesab edir (8, s. 127) <http://www.felsefedunyasi.org/files/56_r08hg85cwm.doc>. Lakin təəssüf ki, bu meyllər, daha doğrusu, onların surroqatı bütün cəmiyyət miqyasında yayılır və mövcud ictimai psixologiyanın ayrılmaz komponentinə çevrilir. Buna görə də, həmin meyllərin mənfi təsirlərinin neytrallaşdırılması sahəsində aparılan iş də kütləvi miqyas daşımalıdır.

Bizim intellektual tərəqqimiz və Avropanın elmi inkişaf səviyyəsinə çatmağımız əlçatmaz bir şey deyil. Və bu məsələdə ziddiyyət ortaya çıxa bilməz. Lakin Qərb həyat tərzi təkcə elmi-texniki inkişafın, rasional düşüncənin məhsulu olmayıb, həm də neçə əsr ərzində rasionalizmə reaksiya şəklində yaranmış əxlaqi-mənəvi normaların (daha doğrusu, normasızlığın), "mənəvi boşluğun" məhsuludur. Müasir dövrdə Qərb ideoloqlarını rasionalizmdən daha çox məhz ona reaksiyanın; modernizmin və postmodernizmin yaratdığı mənəvi plüralizmin sosial nəticələri narahat edir. Bizə transfer olunan da məhz bu nəticələrdir. Neçə əsrlik tərəqqi prosesinin daxili yüksəliş məqamlarını yaşamadan birbaşa onun neqativ nəticələri ilə qarşılaşmaq immuniteti olmayan adamın yoluxması kimi bir şeydir.

Elmi-texniki tərəqqi sayəsində istehsal vasitələri inkişaf edir, keçmiş primitiv texniki vasitələr, maşınlar indi yeni, mükəmməl maşınlarla əvəz edilir, istehsalın avtomatlaşması prosesi getdikcə sürətlənir. Belə bir şəraitdə istehsal sahəsində çalışan adamlar qarşısında da yeni tələblər durur. Hətta ofis işi də yeniləşir. Köhnə iş vərdişləri daha heç nəyə yaramır. İndi hər yerdə kompüterlə, yeni texniki vasitələrlə işləməyi bacaran, internet xidmətindən istifadə edə bilən adamlar lazımdır. Bununla əlaqədar olaraq bir sıra yeni imkanlar açılır və habelə prinsipial çətinliklər yaranır.

Yeni elmi kəşflərin tətbiqi, yeni texnika növlərinin istifadəsi sayəsində işçilərin vəziyyəti nəinki yaxşılaşmır, əksinə, işsizlik getdikcə artır. Müasir elmi-texniki inqilab üçün səciyyəvi olan mexanikləşdirmə və avtomatlaşdırma hadisələri külli miqdarda fəhlənin, personal kompüterlər isə bir çox idarə və dəftərxana işçilərinin əməyini maşın ilə əvəz etməyə imkan verir ki, bu da təsərrüfatın plansız xarakteri ucbatından kütləvi işsizliyə gətirir. İndustrial cəmiyyətdə şərait elədir ki, insan avtomat qurğuları idarə etməklə intellektual aspektdə inkişaf etmək əvəzinə, həmin avtomatın mexaniki əlavəsinə çevrilir və müstəqilliyini daha çox dərəcədə itirmiş olur. İstehsalın avtomatlaşdırılması heç də yalnız fiziki əməyin yüngülləşməsinə xidmət etmir; burada hər şey elə qurulur ki, insanın fiziki imkanlarından, əmək qabiliyyətindən maksimum istifadə olunsun.

Yeni texniki qurğunun, maşının istehsal prosesinə daxil edilməsi o deməkdir ki, sahibkar istehsalın həcmini artırarkən işçilərin nisbi sayını azaltmağa və hər bir işçinin daha çox əmək sərf etməsinə nail olur.

Elm və texnikanın sürətli inkişafı cəmiyyətin daxili ziddiyyətlərini kəskinləşdirir, məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındakı əksliyi daha da gücləndirmiş olur. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət və iri inhisarlar arasındakı rəqabət texniki tərəqqinin planlı təşkilinə, böyük miqyaslı texniki islahatlar keçirilməsinə imkan vermir. İnsanların mənəviyyatının, xarakterinin formalaşmasında, onların sağlamlığında, fiziki inkişafında, habelə cəmiyyətə və təbiətə münasibətində, estetik zövqünün oriyentasiyasının müəyyənləşməsində ixtisasın, peşə vərdişlərinin, əməyin xarakterinin doğrudan da böyük rolu vardır (5, s. 146).

Qərb ölkələrindən start götürmüş elmi-texniki inqilabın istehsalata tətbiqində belə bir ziddiyyətli cəhət vardır; bir tərəfdən fəhlələrin elmi-texniki biliyi, ümumi məlumatlılıq səviyyəsi artır, digər tərəfdən də texniki qurğular o dərəcədə mürəkkəbləşir ki, onlardan xüsusi mütəxəssis olmayan adamın baş çıxarması qeyri-mümkün olur.

**Fəhlə texniki qurğuların, avtomat sistemlərin yalnız idarə olunması qaydasını bilir. Təsadüfən avtomat sistem xarab olsa, onu yalnız mütəxəssis təmir edə bilər. Bir sözlə, texniki qurğunu, avtomat sistemləri idarə etmək, tənzimləmək və onların quruluşundan baş çıxarmaq tamam başqa-başqa şeylərdir.**

● **Babək NƏBİYEV,**
***ADMİU-nun magistratura tələbəsi***

## Ədəbiyyat

1. Beynəlxalq mədəni əlaqələr (Dərslik, M.S. Manafova və N.T. Əfəndiyevanın redaktəsilə). Bakı: ADMİU-nun "Mədəniyyətşünaslıq" kafedrası, 2008.
2. Xəlilov S. Lider - Dövlət - Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001.
3. Xəlilov Səlahəddin. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti, 2007.
4. Mədəniyyət tarixi və nəzəriyyəsi (dərslik). Bakı: ADMİU, 2006.
5. Mədəniyyətin marksizm-leninizm nəzəriyyəsi. Bakı: Maarif, 1990.
6. Şükürov A. Fəlsəfə. Bakı: Adiloğlu. 2002.
7. История и культурология. Учебное пособие (Авторы: Н.В.Шишова, Т.В.Акулич, М.И.Бойко и. др.). Москва: Логос, 1999.
8. Липовецки Ж. "Эра пустоты. Эссе о современном индивидуализме". Санкт-Петербург", 2001.
9. <http://www.mct.gov.az/> Mədəniyyət və Turizm Nazirliyi.